DOI: https://doi.org/10.36719/2663-4619/117/73-78

**Tehranə Məmmədova**
Naxçıvan Dövlət Universiteti
Magistrant
https://orcid.org/0009-0009-6013-1073
altuno@inbox.ru

# Biznes riskləri və onların iqtisadi sistemin sahələri üzrə təzahürü

## Xülasə

***Tədqiqatın məqsədi*** – biznes risklərinin mahiyyətinin araşdırılması, həmçinin onların ümumilikdə ölkənin və regionların iqtisadi sistemlərinin, müxtəlif əlamətlərlə fərqlənən təsərrüfat subyektlərinin həyatında oynadığı rolun qiymətləndirilməsi

***Tədqiqatın metodologiyası*** – müşahidə, qruplaşdırma, müqayisəli təhlil, balans metodlarından istifadə olunması.

***Tədqiqatın nəticələri*** – Azərbaycan Respublikasının iqtisadi sahələrinin fəaliyyətlərində müxtəlif təyinatlı risklərin məzmun və mahiyyətinə aydınlıq gətirilməsi, onların yaranma səbəbləri və formalaşdıra biləcək qarşılıqlı təsirlərinin komples şəkildə öyrənilməsi.

***Tədqiqatın təcrübi əhəmiyyəti*** – risklərin nəzəri aspektdə olduğu kimi, təcrübi aspektlərdə də özünü ifadə edə bilməsi, risklərin qruplaşdırılması bazasında amillərin keyfiyyət xarakeristikalarının dəqiqləşdirilməsi, onların mənfi və müsbət məqamlarının istifadə edilməsi şərtlərinin müəyyənləşdirilməsi, iqtisadi sahə və istiqamətlər üzrə daha dəqiq və düşünülmüş tədbirlərin icrası.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi*** –müxtəlif elmi üsul, mexanizm və vasitələrdən istifadə etməklə iqtisadi sistemin sahələrində yarana biləcək situasiyalara risklər baxımından qiymətin verilməsi, fərqli prizmalı yanaşmaların təmin edilməsi yolu ilə çoxamilli tədqiqatların həyata keçirilməsi, risklərlə bağlı bəlli yekunlaşdırmaların aparılması.

***Açar sözlər:*** *biznes fəaliyyəti, biznes riskləri, iqtisadi sistem və onun sahələri, sahəvi risklər, risk səviyyələri*

**Tehrana Mammadova**
Nakhchivan State University
Master student
https://orcid.org/0009-0009-6013-1073
oguzmemmed2013@gmail.com

# Business Risks and Their Manifestation in the Areas of the Economic System

## Abstract

**Purpose of the research** – to study the essence of business risks, as well as to assess their role both in the life of the state, its regions, and in the activities of economic entities that differ in various characterictistics.

**Research methodology**-the use methods such as observation, grouping, comparative analysis, and balance analysis.

**Research results-** clarifying the essence and significance of risks of various orientations in the economic sectors of the Republic of Azerbaijan, a comprehensive study of their causes, and the formation of possible interrelated influences.

**Partical significance of the research**-both in the theoretical aspect, self-identification of risks, and in the practical aspect, clarification of qualitative characteristics of risk factors and their classification, development of the recommendations for the positive and negative features, and the implementation of more precise and thoughtful measures for economic sectors and directions.

**Originality and scientific novelty of the research-**evaluation from the point of view of risks of possible situations intended for economic sectors using various scientific methods, mechanisms and tools,

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

implementation of multifactor research by ensuring different approaches from different angles, conducting various general and related assessmnets of risks.

***Keywords:*** *business activity, business risk, economic system and its sectors, sectoral risk, risk levels*

## Giriş

Müasir iqtisadi şərait fəaliyyətin bütün sahə və istiqamətlərinin ahəngdar, mütəşəkkil və səmərəli şəkildə reallaşmasını tələb etməkdədir. İqtisadi sistem özünün "fəaliyyət blokları" (sahə blokları) vasitəsilə işlərin təşkili və həyata keçirilməsini şərtləndirməklə, onun spesifikasiyalarına aydınlıq gətirilmiş olur. İstehsal olunan məhsulların sənayenin əhatəsinə daxil olan istehsal vasitələri istehsalı (A qrupu) və ya istehlak predmetləri istehsalı (B qrupu) üzrə bölgülərinin həyata keçirilməsi, fəaliyyətin obyektinin fərdlərin və ya istehsal obyektlərinin istehlakını ödəyə biləcəyi kimi addımların atılması sonrakı reallıqların bərqərar olmasına şərait yaratmaqdadır.

**Tədqiqat**

İstehsalın yaxud xidmətin təşkili və ya həyata keçirilməsi onun xüsusiyyətlərini ifadə etmiş olur. Bu sırada istehsalın (xidmətin) fərdi və ya məcmu şəklində olan obyekti və vahidləri, onun yekunlaşmasını şərtləndirən mərhələlər, istehlakçı kütləsi, əmtəəyə yaxud xidmətə qarşı irəli sürülən tələblər (istəklər, ehtiyaclar) və digər komponentlər nümunə olaraq göstərilə bilər.

Formalaşmış və ya formalaşmaqda olan situasiyalar çoxamilli şəkillәndirmələrin yekunlarını təmsil etməkdədir. İqtisadi sahə, fəaliyyət istiqaməti, məhsul (xidmət) növü və digər bu kimi məqamlar özünün mənfi və müsbət xarakteristikaları ilə fərqlənən nəticələrə səbəb ola bilər ki, bunlardan biri də risklər, onların təsnifləşdirilməsi, "təsir - əkstəsir" müstəvisində yarana biləcək və fərqli konfiqurasiyalarla tərənnüm olunan situasiyalardır (Quliyev, 2006).

**Risk anlayışı və onun kateqoriyaları**

Risk - sahibkarın hər an rastlaşa biləcəyi fəaliyyət komponenti kimi qiymətləndirilməkdədir. Risk elementi bir çox istiqamətlər üçün spesifik təzahürlərlə səciyyələnməkdədir. Onun əhatə dairəsi kifayət qədər rəngarəng olmaqla, canlı və cansız əməyi əhatə etməkdədir. Risklər insanların həyatında və biznes fəaliyyətində rastlaşılan situasiyalar məcmusu kimi də qiymətləndirilməlidir.

Risklərin qruplaşdırılmasında əmələgəlmə mənbələrinə görə, formalaşma yerinə (proseslərinə) görə, başvermə səbəblərinə görə və digər amillər fərqləndirilməkdədir.

Digər tərəfdən, sahibkar tərəfindən fəaliyyətin təşkili, investisiyalaşma və digər bu kimi istiqamətlər risk anlayışını özünəməxsus qaydada nizamlamaqdadır. Məsələn, risk:

- ✓ fərdlərin həyatının müxtəlif mərhələ və situasiyalarında yaranan və sosial-psixoloji amillərlə müşayət olunan arzuolunmaz (nəzərdə tutulmayan) tərəddüdlərin ifadəsi;
- ✓ ümumi fəaliyyət dövründə sahibkarın rastlaşa biləcəyi arzuolunmaz vəziyyət və situasiyalar məcmusudur;
- ✓ itki ehtimali kimi müşahidə altına alınmaqdadır;
- ✓ vəzait və resurslara qənaətetmə stimuludur;
- ✓ iqtisadi (fəaliyyət) sferasının daim nəzarət altına alınması elementidir;
- ✓ mütəmadi təhlil və qiymətləndirmə, uçot və hesabat işlərinin həyata keçirilməsi üçün zəmini təşkil etməkdədir və s. (Mahmudov, 2008, s. 169).

Ümumiləşdirmə aparmaqla qeyd etmək yerinə düşər ki, risklər sosial, iqtisadi və digər sferaları əhatə etməkdədir. Lakin biz bəhs olunan iki istiqamət üzrə yer ala biləcək risklərlə bağlı fikir və düşüncələrə diqqət yetirmək niyyətindəyik.

Bölmənin əvvəlində qeyd etdiyimiz hər bir risk amilin müvafiq risklər məcmusunu tərkib elementlərə ayırmağa imkan verəcəkdir. Məsələn, əmələgəlmə mənbəyinə görə riskləri insanın şəxsi keyfiyyətləri (sağlamlıq, işgüzarlıq, hər hansı sosial və ya iqtisadi istiqamətdə bilik və bacarıqlara malik olmaq və s.) ilə bağlı qrupa və təbii amillərlə şərtləndirilmiş amillərə (ərazi yerquruluşu, hava-iqlim şəraiti, ərazinin təbii resurslarla təmin olunma səviyyəsi və s.) ayırmaq mümkündür.

Öz növbəsində baş vermə səbəbi risklərin araşdırılmasında mühüm amil hesab olunmaqdadır. Bu sırada tərkib elementlərin öyrənilməsi məzmun etibarı ilə fərqli metodlar və metodologiyadan istifadə olunmaqdadır. Səbəb amilinin öncül maddələrindən birini gələcəyin qeyri-müəyyən olması təşkil etməkdədir. Müvafiq maddə istər sosial, istərsə də iqtisadi (biznes) müstəvisində özünün spesifik qaydalar çərçivəsində göstərə bilər (Porter, 2021).

Hər hansı insanın perspektiv dövrdə yaşam tərzi, yaxud məşğuliyyəti baxımından edə biləcəyi seçim ehtimalları istər məzmun, istərsə də mahiyyət-əhəmiyyət müstəvisində nəzərdə tutduğu ilə rastlaşdığı həqiqətlər tamamilə fərqlənə bilər. Əldə olunan nəticələr tamamilə arzuolunmaz şəkillərdə təzahür edə bilər. Baxmayaraq ki, həmin fərd öncədən bəlli maddi və qeyri-maddi, maliyyə və digər imkanların həcm-tərkib ifadələrini özü üçün müəyyənləşdirilmişdir.

**İqtisadi sferada risklərin mühüm istiqamətləri**

Oxşar vəziyyətin iqtisadi müstəvidə baş verməsi halları da mümkündür və reallaşma variantlarının tərəddüdləri bəlli risklərin yer almasına şərait yaradır. Onların sırasında istehsalat (xidmət) və ümumilikdə təsərrüfat subyektlərində təşkilati, idarəetmə, marketinq sorğu və monitorinqlərinin icrası, məlumatlandırma prosesləri və partnyorlarla onların mübadiləsi, təhlil və qiymətləndirmə sahəsində olan çatışmazlıqlara, emal, logistika, maliyyə-pul resursları və onların hesablaşmalarda istifadəsi, yükdaşıma, əmtəələrin xüsusi şəraitdə saxlanılması, konsaltınq, zootexniki, suvarma və digər zəminli (lakin özündə real və potensial qüsurları ifadə edə biləcək) məsələlərə xüsusilə müraciət oluna bilər. Buraya iqtisadi sistemin sahələri üzrə yer ala biləcək riskləri də əlavə etmək yerinə düşərdi.

Sadaladığımız müstəvidə ilk risk yaradan vəziyyəti fəaliyyət üzrə düzdün məlumatlandırma və sorğu işlərinin həyata keçirilməməsi təşkil etməkdədir. Nümunə kimi iqtisadi fəaliyyət sferalarında yarana biləcək mühüm situasiyalardan bir neçəsinə müraciət etmək yerinə düşərdi.

***Situasiya* 1**. Hazır məhsul istehsalı və məlumatlandırma problemləri.

1.1. İlk situasiyada istehsal prosesinə müraciət etmək və əmtəənin son kondisiyaya çatdırılması addımlarını risk anlayışı baxımından qiymətləndirmək məqsədəuyğun olardı. İlk öncə qeyd etmək yerinə düşər ki, məhsul istehsalı prosesləri dəqiq marketinq monitorinqlərinə və sorğularına əsaslanmalıdır. Fərdlərin yaxud istehsal vahidlərinin nə istəməsi, onların fəaliyyətinin ardıcıl və fasiləsiz təmin olunmasında xüsusi istehlak və sonrakı istehsal proseslərinin hansı yönlərinə üstünlük verməsi, həmin subyekt ilə bağlı bazara ötürülən məhsulun ümumi həcmləri və xüsusi çəkiləri haqqında dəqiq informasiyanın əldə olunması zəruridir. Bəhs olunan istiqamətlərin vəziyyətinin dəqiq araşdırılması risk səviyyəsinin müəyyən edilməsini asanlaşdırır.

Tədqiqatlar göstərməkdədir ki, bazarlarda tələblərə uyğun icra olunan marketinq sorğuları və monitorinqləri istehsalçı müəssisələrin risk payında özünü 20%-dən 54%-dək ifadə edə bilər (Mahmudov, 2011, s. 192).

Bəhs olunan vəziyyətdən sığortalanması kifayət qədər maliyyə resurslarının qənaətinə, digər tərəfdən isə səmərəli istifadəsinə və, nəticədə, pul dövriyyəsi həcmlərinin artımına, həmçinin əlavə gəlirlərin əldə olunmasına şərait yaradacaqdır. Mövcud vəziyyətdə gözlənilən (olmalıdır) və real (vardır) səviyyələrin iqtisadi-riyazi metodlar və əyani təsvir vasitələrinin köməyi ilə əks etdirilməsi nəzərə şəkildə bəhs olunan mənzərəyə təcrübi sərhədlər təyin etmiş, kənarlaşmalara dəqiqlik gətirmiş olur. Öz növbəsində, risk üzrə tədqiqatların həyata keçirilməsi həmin vəziyyətə bir çox halda onlarla aparıcı və bir o qədər də köməkçi (ikinci dərəcəli) amilin təsirini ifadə etmiş olur. Belə vəziyyət yaranmış ümumi mənzərə daxilində göstəricilər üzrə daha optimal və səmərəli "dəstin" seçilməsini şərtləndirməkdədir.

1.2. Digər tərəfdən, hazır məhsul zamanla istər özünün keyfiyyət ifadələri, istərsə də istehsal xüsusiyyətləri baxımından mütəmadi olaraq təkmilləşdirmələrə məruz qalmaqdadır. İstehlakçı tələbləri (ehtiyacları, istəkləri) daim daha təkmil məhsul yönündə hərəkət etməkdədir. bu isə bir tərəfdən məhsulların mahiyyət-məzmun-funksiyalar yönündə keyfiyyət xarakteristikalarının artımına, digər tərəfdən isə uyğun istehsal (xidmət) proseslərində yeniliklərin zərurətə çevrilməsinə şərait yaratmaqdadır. Bəhs olunan vəziyyət müxtəlif mərhələlərdə sistemli və kompleks şəklində icra olunan məlumatlandırmaya ehtiyacın yranmasından xəbər verməkdədir.

Müvafiq məlumatlandırma cəmiyyətin artan və təkmilləşən ehtiyaclarının ödənilməsində iki "mərkəzin" aktivliyinə diqqəti çəkməkdədir (Atakişiyev, 2010):

✓ sosial müstəvidə ehtiyacların daha yüksək ödənilməsinə yönələn, müxtəlif kəmiyyət-keyfiyyət xarakteristikaları yüksəldilmiş məhsulların mübadilə məkanlarında özünün istehlakçısı ilə görüşməsi,

✓ iqtisadi müstəvidə isə həmin məhsullar üzrə istehsal və sonrakı xidmət proseslərinin daha təkmil fazalara keçidinin təmin olunması.

***Situasiya* 2.** Xammal və digər istehsalat ehtiyaclarının çatışmazlığı.

Bazar müşahidələri istehlakçı sifətilə çıxış edəcək cəmiyyət üzvlərinin hər hansı məhsul növünə (və ya çeşidinə) olan ehtiyacın müəyyən olunmasına şərait yaratmaqdadır. Bu sırada biznes sfera tərəfindən bazarın hansı məhsullarla hansı həcmlərdə ehtiyacının formalaşması ilə bağlı yekun məlumatlar mövcud olmalıdır. İstehsalın (xidmətin) ahəngdar təşkili və həyata keçirilməsi öz növbəsində həmin proseslər üzrə tərkib komponentlərin ehtiyatlarının yaradılmasını zəruriləşdirir. Çünki, təchizat (tədarükat) proseslərindəki çatışmazlıq və uyğunsuzluqlar risklə müşayət olunan vəziyyətlərin yaranmasına səbəb olmaqdadır. Formalaşa biləcək situasiyalarda hər hansı əsas və köməkçi xammalın çatışmazlıqları, fərqli modifikasiyalar üzrə kompleksləşdirilmələr, ehiyat hissələri ilə təmin olunma vəziyyəti kimi fərdi istiqamətlər ortaya çıxa bilər. Həmin vəziyyətlər risklərə yol açan elementləri özündə təmərküzləşdirsə də, onlara operativ reaksiyanın verilməsi risk payını minimallaşdırmaq (və ya onu tamamilə ləğv etmək) imkanı ilə yanaşı istehsalçı və ya müvafiq xidmətləri göstərən subyektlərdə fəaliyyətin innovativ yönlərdə dəyişmələrinə səbə ola bilər (Allahverdiyev, 2002).

İstehsalın xüsusiyyətləri və ya iqtisadi sistemin hər hansı sahəsinə aidiyyat istehsal (hasilat, xidmət) edilən məhsulun spesifik cəhətlərinə diqqəti çəkməklə, onun bazasında hər hansı xammal və materiallar üzrə əvəzlənmə, yenilənmə kimi proseslərin gedişatına start verilə bilər.

Müasir insan cəmiyyəti və biznes dünyası, texniki və texnoloji tərəqqi, fərqli istiqamətlərdə istehsal üçün yeni məhsul və xammalların kəşfinə nail ola bilər ki, bu da bəzi hallarda istehsalın (xidmətin) məzmununda əsaslı dəyişikliklərə səbəb ola bilər. Yaranmış vəziyyətdə risklilik dərəcəsi kifayət qədər yüksək ola biləcək situasiyalar ortaya çıxa bilər:

a) yeni məzmunlu, laik bazar tərəfindən bəlli müddət tam (məqbul şəkildə) qəbul edilməyən məhsulların mübadilə məkanlarına ayaq açması;

b) üzərində təkmilləşdirmələr icra olunmuş, lakin bu zaman istehlakçı kütləsinin fikir və istəkləri nəzərə alınan məhsul buraxılışına keçidin təmin edilməsi və s.

Bəhs olunan amillərdən hər biri özündə ümumi və ixtisaslaşdırılmış bazarları zəruri məhsullarla təmin etmək məqsədinə güdsə də, eyni zamanda spesifik risk paylarını da tərənnüm etməkdədir. Düzdür, onların kəmiyyət səviyyələri və intervalları heç də bütün hallarda eynilik təşkil etməsə də, lakin bu amilin mövcudluğu danılmazdır.

***Situasiya* 3.** “Baş istehsalçı – reallaşdıran partnyor” əlaqələrində yarana biləcək çətinliklər.

İstehsal prosesi kifayət qədər mürəkkəb yönləri ilə ortaya çıxmaqdadır. Bəhs olunan yöndə kompleks araşdırmanın həyata keçirilməsi fəaliyyətin fərqli yön və mərhələləri üzrə spesifikasiyaları sərgiləmiş olur. Həmin spesifikasiyalar eyni zamanda risklə müşayət olunan vəziyyətlərin yaranmasına yol açır. Prtnyorlarla əlaqələrin formalaşması müxtəlif fəaliyyət marşrutları üzrə baş verə bilər. Onların sırasında “təchizat (tədarükat) → istehsalın (xidmətin) reallaşması → satış (mübadilə) prosesləri” marşrutu üzrə yarana biləcək və paytnyorlarla əlaqələrin səbəb ola biləcəyi riskli situasiyalar əhaəmiyyətli xüsusi çəkilərlə fərqlənməkdədir (Kotler, Armstrong, 2021).

Qiymətləndirmə zamanı iri həcmli istehsal fəaliyyət subyektdaxili və subyektdənkənar “komanda oyunu” kimi ortaya çıxır. Belə ki, yuxarıda ifadə etdiyimiz marşrutun hə bir həlqəsi çoxsaylı və sistemləşdirilmiş, bəlli şərtləri özündə ehtiva edən əlaqələrin mövcudluğu ilə müşayət olunmaqdadır. Topdan və pərakəndə dövriyyələrlə müşayət olunan xammalın, əsas və köməkçi materialların, hazır məhsul və malların, mərhələlərin digər “iştirakçılarının” əldəyişdirməsi özünün iqtisadi-inzibati və digər şərtləri ilə tərənnüm oluna bilər. Bu sırada əldəyişdirmə həcmləri də iqtisadi (biznes) mənzərəsinin xüsusiyyətlərinə təsir etmək imkanına malikdirlər.

Bəhs olunan situasiya daxilində tikinti sahəsində yarana biləcək risklər sprsifikliyi ilə fərqlənməkdədir. Müvafiq vəziyyətdə risklərin yer alması zəmininə əyani nümunə kimi “baş podratçı - subpodratçı” əlaqələrində yarana biləcək çətinliklər göstərilə bilər. Belə ki, işin sifarişçisi öz razılaşmasını baş podratçı ilə etməkdədir. Onun üçün müvafiq işlərin yekunlaşdırılmasında və təhvilində baş podratçının hansı birgə icraçılarına (yəni subpodratçılara) müraciət etməsi mühüm əhəmiyyət daşımır. Həmin birgə icraçıların fəaliyyətində yaranan fasilə və ya gecikmələr işin ümumi ahənginə mənfir təsir göstərmiş olur ki, bunun özü də bir riskdir, yaratdığı nəticələr isə növbəti risklər üçün təməlləri formalaşdırmaqdadır (Mikhalev, Galiyeva, 2015).

Eyni şəhərli, regiondaxili və ölkədaxili partnyorlarla əlaqələr daha sadə və müstəqim şəkildə reallaşdığı halda, xarici partnyorlarla əlaqələrin mürəkkəb formalarına da təcrübədə rast gəlinir ki, bu da əlavə risklə müşayət olunan situasiyaların yaranmasına yol açır. Düzdür, iqtisadçı-alim R.

İsgəndərovun fikrincə həmin risk payı xarici partnyorlarla son illərdə 1,2% - 3,0% arasında bərqərar olsa da, həmin həcm riskli situasiyaların bəhs olan sferada tamailə aradan qalxmamasından xəbər verməkdədir (Bağırov, 2023, s. 143).

***Situasiya 4.*** Fors-major vəziyyətləri

Riskin meydana gəlməsinin geniş yayılmış formalarından biri kimi fors-major vəziyyətləri çıxış etməkdədir. Belə vəziyyətlər istər istehsalçı (öz xidmətlərini təklif edən) subyekt tərəfindən, istərsə də onun partnyorları tərəfindən meydana gətirilmir, bəzi hallarda hətta aidiyyatı olmayan amillərin vahid müstəvidə xaotik birləşməsi nəticəsində mümkün ola bilər. Məsələn, təbii iqlim şəraitinin dəyişməsi hər hansı mövsüm üçün məhsul istehsalına istiqamətlənən subyektlərin fəaliyyətinə mənfi təsir göstərmək iqtidarındadır. Yaxud, bəlli ölkədaxili və beynəlxalq əraziləri bürüyən xəstəliklər bir sıra istehsalların nəticələrini "yoxa" gətirməklə digərlərinin (məsələn, dərmanların, spesifik vaksinlərin) istehsallarının dəfələrlə artımına şərait yaratmaqdadır (Vəliyev, 2016).

Fors-major vəziyyətləri "istehsalat fəaliyyəti – tənzimləmə prosesləri" müstəvisinin qarşılıqlı təsirləri nəticəsində formalaşa bilər. Belə ki, artıq bərqərar olmuş iqtisadi fəaliyyətə hüquqi-normativ tənzimləmənin vasitə və mexanizmlərinin tətbiqi bir sıra məhdudlaşdırıcı və ya qadağanedici situasiyaların təşəkkül tapmasına gətirib çıxaracaqdır. Bəhs olunan vəziyyət bəzi hallarda ayrı-ayrı istehsalat sahə və ya istiqamətlərinin hətta tamamilə ləğvinə gətirib çıxara bilər.

Göstərilən nümunə fors-major vəziyyəti halında belə fəaliyyətin risklərə məruz qalması mümkündür. Tanınmış marketoloq F.Kotler özünün "Marketinqin əsasları" əsərində göstərdiyi kimi: "Riskləri yaradan səbəblər adətən məqsədyönlü şəkildə formalaşdırılmaqdadır. Lakin təcrübə, heç bir öncədən niyyəti olmadan risklərin meydana gəlməsinə də şahidlik etməkdədir. Belə hallar xaotik şəkildə yaranması ilə fərqlənməklə yanaşı, ölkələrdə formalaşmış iqtisadi və sosial reallıqlardan irəli gələ bilər. Buna ən gözəl nümunə - ölkədə məhsul istehsalının artımına qarşılıq onun satıla bilmə imkanlarının gəlirlər və digər faktorlar nəticəsində məhdudlaşdırılmasıdır" (Niftullayev, 2002, s. 217).

**Risk – daim hərəkətdə olan kateqoriya kimi**

Risk anlayışına kompleks yanaşmanın nəticələrindən birini də onun daim dinamik olması təşkil etməkdədir. Belə ki, risklərin güclənməsi – biznes fəaliyyətinin inkişafının əks tərəfi kimi qiymətləndirilməkdədir.

Biznes fəaliyyətinin təşkili və idarə edilməsi risklərin mövcud olacağı fəaliyyət istiqamətlərində onların səviyyələrinə, kəmiyyət-keyfiyyət xarakteristikalarına müstəqil və dolayı təsirləri özündə ifadə etməkdədir. Qeyd etmək zəruridir ki, risk ehtimalı olmayan sahə və istiqamət istər iqtisadi, istərsə də sosial sferada mövcud deyildir. Lakin onların optimal ölçüləri daha işgüzar, məhsuldar, innovativ addımların atılmasına yönəldilmiş arzuolunan münbit şəraitin bərqərar olmasına şərait yaratmaqdadır.

Risk hərəkətliliyi subyektin özü ilə birbaşa əlaqəli ola bilər yaxud tamamilə kənar elementlər bu işdə aktiv iştirakçıya çevrilə bilərlər. Çoxsaylı amillər sırasında məhsul istehsalı və ya xidmətlərin göstərilməsi ilə əlaqəli rəqabətin mövcudluğu subyektlərarası mübarizənin nəticəsi kimi çıxış etməkdədir (Bagirov, Makhmudov, 2024).

İşgüzar bacarıqlarla mütərəqqi düşüncənin, əmək vərdişləri ilə hüquqi maariflənmənin, optimal təşkilatlanma ilə səmərəli fəaliyyətin, bazarı duymaq qabiliyyəti ilə onun marketinq araşdırmalarının vəhdəti risklərin çilovlanma mexanizmlərini özündə birləşdiməkdədir. Rəqib tərəflərin bəhs olunan kəmiyyət və keyfiyyət göstəricilərinin qarşılaşdırılması hər hansı tərəfə üstünlüyün verilməsini reallaşdırcaqdır. Təcrübi həqiqətlər təsdiqləyir ki, iqtisadi sferada mövcud olan mübarizələrin qalibi kimi əksər hallarda daha aşağı risklilik səviyyəsinə malik tərəf qəbul olunmaqdadır.

## Nəticə

Məqalədə iqtisadi (biznes) sahələrində və müvafiq mühitdə risk anlayışına, həmin məvhumun davranışlarına xüsusi diqqət ayrılmaqdadır. Nəzərdən yayınmamalıdır ki, risk anlayışı və onun iqtisadi sistemin sahələrinə təsiri özünün müxtəlif aspektləri və baxış prizmaları ilə fərqlənməkdədir. Onların sırasında aşağıdakı mühüm aspektlərə diqqəti çəkmək zəruridir:

- ✓ risk – biznes mühitinin təkanverici elementidir;
- ✓ risk – sahibkarlarda əlavə məsuliyyəti yaradan komponentdir;
- ✓ risk – özünün mümkün, böhran və fəlakətli zonalarına malik mexanizmlər dəstidir;

✓ risk – tənəzzüllü keçmişlə mütərəqqi gələcəyi birləşdirmən ara zaman və fəaliyyət manqasıdır;

✓ risk – təşkilati, idarəetmə, tənzimləmə və digər istiqamətlərin öz fəaliyyətlərində daha mütərəqqi qərarlar qəbul etməsinin, innovativ addımlar atmasının təkanverici qüvvəsidir;

✓ risk – itkilərin yer almasına yol açan iqtisadi situasiyadır;

✓ risk – ümumilikdə ölkənin, onun regionlarının, həmçimim hər bir subyektin maliyyə vəziyyətinin korlanmasına səbəb ola biləcək məqsədyönlü şəkildə düşünülməmiş və ya səhv atılmış addımlar məcmusudur;

✓ risk – perspektiv planlaşdırma prosesləri üçün nizamlayıcı vasitədir;

✓ risk – təsərrüfat subyektlərinin strategiya və taktikasını formalaşması və mütəmadi yenilənməsinin mühüm təsir faktorlarındandır;

✓ risk – düzgün iqtisadi qiymətləndirməyə məruz qalmaqla, dəqiq proqnozlaşdırmağa tabe tutula bilən parametrlər məcmusudur;

✓ risk – ehtimalları özündə cəmləyərək, səmərəli təkanverici konfiqurasiya yaradan amildir və s.

Riskləri müxtəlif yönlərdən zəngin şəkildə xarakterizə edən cəhətlər özünə məzmunca daha dəqiq və sistemli yanaşmanı tələb etməkdədir, eyni zamanda əsaslandırılmış və kompleksli tədqiqatları işıqlandırmaqdadır. Onlar məzmunlarında cəmlədikləri müxtəlif xarakter və xassələrlə çoxamilli, müxtəlif məzmunlu alternativləri ilə təmsil oluna biləcək araşdırmaların həyata keçirilməsinə yol açmaqdadır.

## Ədəbiyyat

1. Bağirov, M. S. (2023). *Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti*. Əcəmi.
2. Mahmudov, C. İ. (2008). *Biznesin əsasları* (Dərs vəsaiti). AzTU-nun mətbəəsi.
3. Mahmudov, C. İ. (2011). *Biznes: əsasları, təşkili və idarə edilməsi*. İdeya.
4. Niftullayev, V. M. (2002). *Sahibkarlığın əsasları.* Zaman, 618.
5. Quliyev, T. F. (2006). *Menecmentin (idarəetmənin) əsasları.* ADİU-nun nəşriyyatı, 691.
6. Atakişiyev, M. C., və b. (2010). *Makro və mikroiqtisadiyyat*. Azərnəşr.
7. Allahverdiyev, H. B., və b. (2002). *İqtisadiyyatın dövlət tənzimlənməsi*. Nasir.
8. Vəliyev, P. A. (2016). *Dövlətin iqtisadi təhlükəsizlik məsələləri*. Letterpress.
9. Porter, M. E. (2021). *Strategiya*. Bakı: TEAS Press. (Harvard Business Review toplusu)
10. Kotler, F., & Armstrong, G. (2021). *Osnovy marketinga*. YUNITI-M.
11. Mikhalev, S. I., & Galiyeva, R. I. (2015). *Osnovy organizatsii agrobiznesa*. Irkutsk: IAU.
12. Bagirov, M. S., & Makhmudov, Dzh. I. (2024). Sovremennyye monitoringi i oprosy – odno iz vazhnykh sredstv marketinga i usovershenstvovaniya provedeniya khozyaystvennoy deyatel'nosti v otraslevom masshtabe. *Konkurentosposobnost' v global'nom mire*, *(8)3*, Moskva.